“AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI”

PUBLİK HÜQUQİ ŞƏXSİ

“TƏSDİQ EDİRƏM”

“Azərbaycan Dövlət Dəniz Akademiyası”

Publik Hüquqi Şəxsin

prorektoru_____ dos. V.B.Sadıqov

“___”_____2025-ci il

KEYFİYYƏTİ İDARƏETMƏ SİSTEMİ

Buraxılış Yekun Dövlət Attestasiyasının (Dövlət İmtahanının) Keçirilməsi QAYDALARI

ADDA-TL-018

BAKI 2025

MÜNDƏRİCAT

1. Giriş.....3
2. Tətbiq sahəsi.....3
3. Daxil olan məlumatlar.....3
4. BYDA-nın (Dövlət imtahanının) keçirilməsi qaydaları.....4
5. Prosesin ölçüləri və meyarları.....6
6. Resurslar.....7
7. Razılaşma vərəqi.....8
8. Dövrü yoxlamanın qeydiyyat vərəqi.....9
9. Dəyişikliklərin qeydiyyat vərəqi..... 9
10. Paylanmanın reyestri.....10
11. Sənədlə tanışlıq vərəqi.....10
12. Formaların reyestri.....11

GİRİŞ

"Azərbaycan Dövlət Dəniz Akademiyası" Publik Hüquqi Şəxsinin Keyfiyyəti İdarəetmə Sisteminin bu sənədi İSO 9001:2015 beynəlxalq standartının 7.5-ci bəndinin tələblərinə və ADDA-KP-002 "Sənədləşdirilmiş məlumatların idarəolunması" proseduruna müvafiq olaraq işlənib hazırlanmışdır.

1. TƏTBİQ SAHƏSİ

1.1. Bu qaydalar "Azərbaycan Dövlət Dəniz Akademiyası" PHŞ-nin Buraxılış Yekun Dövlət Attestasiyasının (Dövlət İmtahanının) Keçirilməsi haqqında əsasnaməyə uyğun hazırlanmışdır (bundan sonra Əsasnamə).

1.2. Sənədləşdirilmiş prosedur təhsil prosesinin təmin edilməsi və aparılması prosesində iştirak edən bütün Akademiya əməkdaşları üçün məcburidir.

1.3 Bu sənədləşdirilmiş prosedurda istifadə olunan terminlər ISO 9000:2015 "Keyfiyyət İdarəetmə Sistemləri" Beynəlxalq Standartına uyğundur. Əsaslar və lüğət."

1.4 Bu sənəddə aşağıdakı simvollar və abreviaturalardan istifadə olunur:

İSO - beynəlxalq standartlaşdırma təşkilatıdır;

BS - beynəlxalq standart;

KİS - keyfiyyət idarəetmə sistemi;

"ADDA" PHŞ – "Azərbaycan Dövlət Dəniz Akademiyası" Publik Hüquqi şəxsi, Akademiya.

ƏSASNAMƏ- Buraxılış Yekun Dövlət Attestasiyasının Keçirilməsi haqqında əsasnamə

1.5 Bu sənəddə aşağıdakı normativ istinadlardan istifadə olunur:

ISO 9000:2015 BS "Keyfiyyət İdarəetmə Sistemləri" Beynəlxalq Standartına uyğundur. Əsaslar və lüğət."

ISO 9001:2015 BS "Keyfiyyəti İdarəetmə sistemi. Tələblər"

ADDA-KP-002 "Sənədləşdirilmiş məlumatların idarə olunması"

2. DAXİL OLAN MƏLUMATLAR

1.2 Buraxılış Yekun Dövlət Attestasiyası tələbələrin və dinləyicilərin aldığı nəzəri biliklərin mənimsəmə səviyyəsini, təfəkkürünün inkişafını, sərbəst işləmə bacarığını, təcrübi məsələlərin həllində həmin biliklərdən istifadə etmək qabiliyyətini müəyyənləşdirmək və qiymətləndirmək üçün nəzərdə tutulur.

1.3 Buraxılış Yekun Dövlət Attestasiyası (Dövlət İmtahanı) rektorun dövlət imtahanına hazırlıq əmrinə müvafiq keçirilir və bu işin həyata keçirilməsində məsuliyyəti tədris işləri üzrə prorektor, tədris qeydiyyat şöbəsi və fakültə dekanları daşıyır.

3. ADDA-DA BURAXILIŞ YEKUN DÖVLƏT ATTESTASİYASININ (DÖVLƏT İMTAHANININ) KEÇİRİLMƏSİ QAYDALARI:

3.1 Dövlət imtahanı qanunçuluq, obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirilir.

3.2. Dövlət imtahanının keçirilmə yeri və vaxtı ixtisas kafedraları tərəfindən müəyyən edilir (nəzəri suallara aid imtahan auditoriada, praktiki suala aid imtahan isə trenajor otağında və laboratoriyalarda aparılir), Akademiyanın rəhbərliyi tərəfindən təsdiq edilir, bu barədə imtahana azı 5 gün qalmış akademiyanın saytında məlumat yerləşdirilir və tələbələrin nəzərinə çatdırılır.

3.3. Tələbə şəxsiyyətini təsdiq edən vəsiqə və qiymət kitabçası təqdim etməklə, dövlət imtahanında iştirak edir.

3.4. Tələbə dövlət imtahanında Buraxılış Yekun Dövlət Attestasiyasının keçirilməsi haqqında Əsasnamədə (ADDA-ƏS-007) göstərilən tələblərə və qaydalara əməl etməlidir. O, bu tələblərə və qaydalara əməl etmədikdə DAK tərəfindən akt tərtib edilir və tələbənin imtahan nəticələrinin ləğv olunması barədə qərar qəbul olunur.

3.5. İmtahan Əsasnaməyə uyğun olaraq yazılı-şifahi formada aparılır.

3.6. İmtahan vaxtı elektron vasitlərdən istifadə olunmasına icazə verilmir. Bu elektron vasitlərinə mobil telefon, peycer, smartfon və s. aiddir.

3.7. İmtahanda elmi lüğətlərdən, kitablardan, konspektlərdən və fənn ləvazimatlarından istifadə olunması qadağandır.

3.8. Dövlət imtahanının davametmə müddəti və imtahan proseduru DAK tərəfindən aşağıdakı kimi müəyyən edilir:

3.8.1. Dövlət imtahanı 2 mərhələdə keçirilir: birinci mərhələdə nəzəri suallara (istismar səviyyəsi), ikinci mərhələdə isə praktiki suallara (idarəetmə səviyyəsi) cavab verilir.

3.8.2. "Gəmiqayırma və gəmi təmiri" ixtisası üzrə dövlət imtahanı bir mərhələdə keçirilə bilər.

3.8.3. Nəzəri suallara aid olan biletlərlə praktiki suala aid olan biletlər eyni nömrələrlə (1, 2, 3, 4 və s.) işarə olunur. Məsələn, tələbə nəzəri suala aid 3 №-li bileti götürübsə bu biletə aid praktiki sual da 3 №-li biletdə olacaqdır. Lakin praktiki suallara aid billetlər tələbələrə günün 2-ci yarısında (praktiki suallardan imtahan keçirildikdə) veriləcəkdir. O vaxta qədər biletlər möhürlənmiş zərflərdə saxlanılır;

3.8.4. Tələbəyə Nəzəri suallara hazırlaşmaq və qeydlərin aparılması üçün 20 dəqiqəyə qədər, prak- tiki sualın yerinə yetirilməsi üçün isə sualın məzmunundan asılı olaraq 25 dəqiqəyə kimi vaxt verilir;

3.8.5. Dövlət imtahanında auditoriyaya əvvəlcə 1 tələbə dəvət olunur. O, bilet götürür, yuxarıdakı vaxt normasına uyğun nəzəri suallara hazırlaşdıqdan sonra imtahan vermək üçün komissiya üzvlərinə yaxınlaşır. Yalnız bundan sonra 2-ci tələbə bilet götürmək üçün dəvət olunur. Növbəti tələbələr də əvvəlki tələbə imtahan vermək üçün hazır olduqdan sonra dəvət olunur və imtahanda 2 nəfərdən çox tələbə olmur.

3.8.6. DAK-ın gün ərzində 10 nəfərdən artıq tələbədən imtahan qəbul etməsinə icazə verilmir.

3.9. Dövlət imtahanı verən tələbə bilet götürdükdən sonra əyləşir və 30 dəqiqə ərzində biletdəki nəzəri suallara aid ona verilən "Cavab kitabçası"nda hər bir sual haqqında qeydlər aparır.

3.10. Tələbəyə verilən vaxt başa çatdıqdan sonra o, qeydlərlə birlikdə DAK-ın üzvləri qarşısında əyləşir və biletdəki hər bir sual haqqında ətraflı izahatlar verir.

3.11. Hər bir sualın izahından sonra DAK-ın üzvləri tələbəyə danışdığı mövzuya, və yaxud, həmin mövzunun aid oluğu fənnə uyğun əlavə suallar verə bilər.

3.12. Tələbənin biletdəki nəzəri və əlavə suallara cavabından sonra DAK-ın hər bir üzvü tələbənin cavablarını qiymətləndirir və bu qiymətlər əsasında onun yekun qiyməti müəyyən edilir (qiymətləndirmə meyarları ayrıca verilmişdir).

3.13. Tələbə dövlət imtahanının nəticələri ilə razı olmadıqda, nəticələr elan olunan gün Akademiya tərəfindən yaradılmış appelyasiya komissiyasına şikayət verə bilər. Şikayətə baxıldıqdan sonra nəticələrə dair müvafiq qərar qəbul edilir.

4. PROSESİN ÖLÇÜLƏRİ VƏ MEYARLARI

Buraxılış Yekun Dövlət Attestasiyasının keçirilməsi üçün tələbələrin siyahısı tərtib edilir, imtahan cədvəli və komissiya üzvləri müəyyən olunur. İmtahan materialları hazırlanır və tələbələrə təqdim olunur. İmtahan prosesində şəffaflıq və obyektivlik təmin edilir. Nəticələr qiymətləndirilir, protokollaşdırılır və təsdiqlənmiş qaydalar əsasında elan edilir.

4.1. Prosesin Ölçüləri: İmtahanın vaxtında keçirilməsi, komissiya üzvlərinin iştirak nisbəti, tələbələrin iştirak faizi və nəticələrin elan olunma müddəti ilə ölçülür.

4.2. Prosesin Meyarları: İmtahanların tam obyektivliklə keçirilməsi, tələbələrin iştirak nisbətinin 95%-dən yuxarı olması, nəticələrin vaxtında elan olunması və imtahan materiallarının düzgün hazırlanması əsas meyarlardır.

Nəzəri suallara görə cavabların qiymət meyarları aşağıdakılardır:

- **15 bal** – tələbə nəzəri suala tam (100%) cavab verir;
- **10-14 bal** - tələbə nəzəri sualın 70-90%-nə cavab verir;
- **6-10 bal** - tələbə nəzəri sualın 50-70%-nə cavab verir;
- **3-6 bal** - tələbə nəzəri sualın 30-50%-nə cavab verir;
- **1-3 bal** - tələbə nəzəri sualın 10-30%-nə cavab verir;
- **0 bal** - tələbə nəzəri suallara cavabı 10% -dən azdır.

Praktiki suallara görə cavabların qiymət meyarları aşağıdakılardır:

- **25 bal** – tələbə verilən tapşırığı trenajorda və yaxud laboratoriyada axıra qədər (100%) yerinə yetirir;
- **17-24 bal** - tələbə verilən praktiki tapşırığı trenajorda və yaxud laboratoriyada 70-90% yerinə yetirir;
- **12-17 bal** - tələbə verilən praktiki tapşırığı trenajorda və yaxud laboratoriyada 50-70% yerinə yetirir;

- **9-12 bal** - tələbə verilən praktiki tapşırığı trenajorda və yaxud laboratoriyada 40-50% yerinə yetirir;
- **3-9 bal** - tələbə verilən praktiki tapşırığı trenajorda və yaxud laboratoriyada 20-40% yerinə yetirir;
- **1-3 bal** - tələbə verilən praktiki tapşırığı trenajorda və yaxud laboratoriyada 10-20% yerinə yetirir;
- **0 bal** - tələbə verilən praktiki tapşırığı trenajorda və yaxud laboratoriyada 10% -dən az yerinə yetirir.

5. RESURSLAR

5.1. Bu sənədləşdirilmiş prosedurun tələblərini yerinə yetirmək üçün Akademiyanın rektoru aşağıdakı zəruri resursları ayırır:

- normativ sənədlər;
- ixtisaslı kadrlar;
- binalar, avadanlıqlar, materiallar;
- maddi resurslar.

"Azərbaycan Dövlət Dəniz Akademiyasında Buraxılış Yekun Dövlət Attestasiyasının (Dövlət İmtahanının) keçirilməsi qaydaları" Akademiyanın Elmi Şurasının 01 aprel 2019-cu il tarixli (protokol № 6) qərarı ilə təsdiq edilib.

RAZILAŞDIRMA VƏRƏQİ

HAZIRLANIB:

Tədris qeydiyyat şöbəsinin müdiri	dos. Ə.M.Süleymanov
“Gəmi sürücülüyü” fakültəsinin dekanı	dos. E.O.Abbasov
“Gəmi mexanikası və elektromexanikası” fakültəsinin dekanı	dos. R.X.Əsgərov
“Dəniz naviqasiyası” kafedrası	dos. H. N. Nəbiyev
“Gəmi energetik qurğuları” kafedrası	dos. A. Ş. İsmayılov
“Gəmiqayırma və gəmi təmiri” kafedrası	dos. İ. A. Xankişiyev
“Gəmi elektroavtomatikası” kafedrası	dos. E.F. Sultanov
“Tətbiqi mexanika” kafedrası	prof. V. H. Həsənov
“Humanitar fənlər” kafedrası	dos. İ.A. Abdullayev
“İngilis dili “ kafedrası	prof. G.B. Alıyeva
İnformasiya resurs mərkəzinin müdiri	A. S. Sadıqov

RAZILAŞDIRILIB:

Rəhbərliyin keyfiyyət üzrə nümayəndəsi (RKN)	dos.V.B.Sadıqov

Dövri yoxlamanın qeydiyyat vərəqi

№	Yoxlamanın tarixi	Yoxlamanı aparanın S.A.A	Yoxlamanı aparanın imzası	Qeydlər

Dəyişikliklərin qeydiyyat vərəqi

№	Vərəqlərin (səhifələrin) nömrəsi			Dəyişilmiş sənədin şifrəsi	Imza	Dəyişikliklərin tətbiq edilmə tarixi
	Dəyişilmiş	Yeni	Ləğv olunmuş			

Sənədlə tanışlıq vərəqi

№	S.A.A.	Vəzifə	Imza	Tarix	Qeydlər

Paylanmanın reyestri

Nüsxə №-si	S.A.A.	Alanın imzası

s.s.	Sənədin adı	Kodu
1.	Dövri yoxlamanın qeydiyyat vərəqi	ADDA-F-046
2.	Dəyişikliklərin qeydiyyat vərəqi	ADDA-F-047
3.	Sənədlə tanışlıq vərəqi	ADDA-F-048
4.	Paylanmanın reyestri	ADDA-F-049